# ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI VƏ AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI

## ARAŞDIRMA SƏNƏDİ



2023

DEMOKRATİK TƏŞƏBBÜSLƏR İNSTİTUTU
IDI
INSTITUTE FOR DEMOCRATIC INITIATIVES

# ÜMUMDÜNYA TİCARƏT TƏŞKİLATI VƏ AZƏRBAYCANIN KƏND TƏSƏRRÜFATI

## Araşdırma sənədi

**Müəllif: Məhəmməd Zeynallı**

**Ekspert: Azər Mehtiyev**

**Bakı - 2023**

# Mündəricat

1. Giriş ..... 4
2. ÜTT-nin kənd təsərrüfatı ilə bağlı yanaşması ..... 4
3. ÜTT-yə üzvlükdən gözləntilər ..... 7
4. Azərbaycanda kənd təsərrüfatı istehsalının vəziyyəti ..... 8
5. Nəticə və tövsiyələr ..... 11

# 1. Giriş

Azərbaycan 1997-ci ildə Ümumdünya Ticarət Təşkilatına (ÜTT) üzv olmaq üçün müraciət edib. O vaxtdan 25 ildən çox vaxt keçməsinə rəğmən ölkəmiz hələ də təşkilata üzv olmayıb. Son illər təşkilata üzv olmaq üçün ikitərəfli və çoxtərəfli danışıqlar nisbətən intensivləşsə də, hələlik prosesin nə vaxt sonuclanacağı dəqiq bəlli deyil.

ÜTT-yə üzvlük zamanı danışıqlar prosesində xüsusilə diqqət yetiriləsi sahələrdən biri də kənd təsərrüfatıdır. Çünki Azərbaycan üçün kənd təsərrüfatı xüsusi əhəmiyyət kəsb edir. Azərbaycanda aqrar sektorun inkişafı üçün potensial imkanlar kifayət qədər genişdir və ixrac potensialını artırmaq üçün real imkanlar mövcuddur. Buna görə də ÜTT-yə üzv olarkən kənd təsərrüfatı üzrə danışıqlarda diqqət mərkəzinə gətiriləsi, danışıqlarda ölkəmizdə kənd təsərrüfatının gələcək inkişaf maraqlarının nəzərə alınması çox əhəmiyyətlidir. Çünki kənd təsərrüfatının inkişafı heç də yalnız ərzaq təhlükəsizliyi yox, əslində ölkənin milli təhlükəsizlik məsələsidir. Təsadüfi deyil ki, ABŞ kimi inkişaf etmiş ölkənin milli təhlükəsizlik konsepsiyasında da bu yanaşma əksini tapıb. Bu məqalədə ölkəmizin ÜTT-yə üzvlüyü zamanı Azərbaycanın kənd təsərrüfatı istehsalının üzləşə biləcəyi problemləri araşdırmağa cəhd etmişəm.

# 2. ÜTT-nin kənd təsərrüfatı ilə bağlı yanaşması

ÜTT 1995-ci ildə Tariflər və Ticarət üzrə Baş Sazişin (GATT) varisi kimi yaradılmış beynəlxalq təşkilatdır. ÜTT millətlər arasında ticarətin qlobal qaydalarını müəyyənləşdirən yeganə beynəlxalq təşkilatdır. Onun əsas funksiyası ticarətin tarazlı, maneəsiz, ehtimal olunan şəkildə və azad aparılmasını təmin etməkdir. Məqsəd üzv ölkələrin əhalisinin rifah halını yaxşılaşdırmaqdır. ÜTT çoxtərəfli ticarət sazişləri əsasında ölkələrarası ticarət münasibətlərinin tənzimlənməsini həyata keçirir. Təşkilat yeni olsa da, çoxtərəfli ticarət sistemi 1940-50-ci illərdən etibarən GATT çərçivəsində yaradılıb[1].

Hazırda ÜTT-nin dünya ticarətinin 98%-ni əhatə edən 164 üzvü var.[2] Müşahidəçi ölkələrin sayı Azərbaycan da daxil olmaqla 25-ə çatır. Vatikan istisna olmaqla qalan 24 ölkə ilə üzvlük barədə danışıqlar davam etdirilir. Qərarlar bütün üzvlərin razılığı ilə - konsensus əsasında qəbul olunur. Qərar qəbulu səs çoxluğu əsasında mümkün olsa da təcrübədə ÜTT-də indiyədək belə hal baş verməyib. Halbuki ÜTT-nin sələfi olan GATT-da belə hallar müşahidə edilib. ÜTT-nin qərarları bütün üzv ölkələrdə ölkə parlamentləri tərəfindən ratifikasiya olunur.

Ümumdünya Ticarət Təşkilatının əsas məqsədi beynəlxalq ticarətin mümkün qədər geniş şəkildə liberallaşdırılmasına kömək etmək və ədalətli rəqabət üçün güclü zəmin yaratmaqdır ki, iqtisadi inkişafa nail olunsun və insanlar arasında daha yüksək həyat səviyyəsi əldə edilsin.

[1] https://www.wto.org/english/thewto_e/history_e/history_e.htm
[2] https://www.wto.org/english/thewto_e/history_e/history_e.htm

ÜTT-yə qəbul zamanı ölkələrin statusu fərqləndirilir və bəzi şərtlər də bu statusla əlaqələndirilir. Bu şərtlərə əsasən tarif güzəştlərinə keçid dövrü (bazara çıxış), kənd təsərrüfatında daxili və ixrac subsidiyalarının həcmi daxildir. Bazara çıxış ÜTT üzvləri tərəfindən ticarətdə tarif və qeyri-tarif maneələrinin azaldılmasını nəzərdə tutur. Kənd təsərrüfatı üzrə ÜTT Sazişi tariflərinin aşağıdakı qaydada azaldılmasını tələb edir:[3]

- İnkişaf etmiş ölkələr üçün altı il ərzində hər bir tarif xətti üzrə minimal 15% azaltma ilə orta hesabla 36% azaldılma
- İnkişaf etməkdə olan ölkələr tərəfindən on il ərzində hər bir tarif xətti üzrə minimal 10% azaltma ilə orta hesabla 24% azaldılma

Tarif güzəştlərinə keçid müddəti maksimum 25 il nəzərdə tutulub və üçüncü dünya ölkələrinə şamil oluna bilər. İnkişaf etməkdə olan ölkələr üçün güzəştlərin müddəti fərqli ola bilər. Məsələn, ÜTT-ə qəbul zamanı tarif güzəştlərinə görə keçid dövrü zamanı Moldovaya 4 il, Gürcüstana 5 il, Qırğızıstana 7 il, Latviyaya 9 il vaxt verilib. Az inkişaf etmiş ölkələr isə tarif azaltmalarından azad olunublar. Lakin onlar "tarifləşdirmə" adlanan prosesi həyata keçirməli - qeyri-tarif maneələri tariflərlə əvəz etməli və ya gələcəkdə artırmamaq şərtilə "məcburi tarif səviyyələri"ni müəyyən etməlidirlər.

İkinci mühüm məsələ kənd təsərrüfatında ixrac subsidiyalarının həcminə müəyyən edilmiş nisbi kvotalarla bağlıdır. Bu kvota inkişaf etməkdə olan ölkələr üçün subsidiyaların ümumi həcminin 10 faizi, inkişaf etmiş ölkələr üçün isə 5 faizi həcmində verilir. Kvota müvafiq ölkələrin ixrac bazarlarının nisbi ölçüsünə əsaslanır. Çünki, tərəfdaş ölkələrin kənd təsərrüfatına subsidiyaları fərqli olduqda, bu, beynəlxalq rəqabətə və ümumi ticarətə mənfi təsir edir. Məhz Uruqvay Raundunun da əsas tələbi daxili yardımları tənzimləmək və aşağı salmaq idi.

ÜTT-də subsidiyalar növlərinə görə zənbillər şəklində təsnif edilir. Bu zənbillər işıqforun rənglərinə uyğun olaraq adlandırılıb: yaşıl zənbil (subsidiyalara icazə verilir), sarı zənbil (subsidiyalar məhduddur) və qırmızı zənbil (subsidiyalar qadağandır).

ÜTT-nin Kənd Təsərrüfatı üzrə Sazişində "qırmızı səbət"dən istifadə edilmir, bunun əvəzinə istehsal subsidiyalarına "mavi səbət" kimi istinad edilir. Kənd təsərrüfatı sektorunda iqtisadiyyatın digər sahələri ilə müqayisədə daha çox mürəkkəb məsələlər olduğuna görə kənd təsərrüfatı sahəsinə əlavə olaraq **inkişaf zənbili** əlavə edilib. Bu proqramlara daxil olan xüsusi güzəştlər bu sazişin 6.2-ci maddəsində öz əksini tapıb. "Xüsusi və fərqləndirici sazişlər" (S&D) adlanan bu güzəştlər adətən inkişaf etməkdə olan ölkələr üçün ÜTT Sazişində göstərilən ümumi qaydalardan daha faydalıdır.

**Sarı zənbil**: Sarı səbətdə ÜTT-nin Kənd Təsərrüfatı Sazişinin 6-cı maddəsi ilə tənzimlənən subsidiyalar var. Adıçəkilən maddədə qeyd olunur ki, aqrar sektora

[3] https://wto.az/ saheler/kend-teserrufati/

subsidiyaların verilməsinə icazə verilir, lakin məhdudiyyətlər tətbiq edilir. Bu kateqoriyaya yerli istehsal subsidiyaları daxildir. Bu səbətlə razılaşan ölkələr kənd təsərrüfatı ölkələridir.

Dövlət aqrar sektorda mal və xidmətlərin qiymətlərini təyin etmək hüququna malikdir və istehsalın artırılmasını təşviq etmək üçün subsidiyalar verə bilər.

Eyni zamanda subsidiyaların məhdud olduğunu da nəzərdən qaçırmaq olmaz: "De minimis" adlanan subsidiyalar inkişaf etməkdə olan ölkələr üçün illik kənd təsərrüfatı istehsalının 10 faizini təşkil edir. İnkişaf etmiş ölkələrdə bu rəqəm 5 faizə enir. Onu da qeyd edək ki, ÜTT-yə üzv olan 30 ölkəyə daha çox subsidiya tətbiq etməyə icazə verilir, lakin ÜTT-də islahatlar davam etdiyi üçün bu hüquqlar getdikcə məhdudlaşdırılır.

ÜTT-nin "Yardımla bağlı Ümumi Aqreqat Tədbirlər" haqqında sazişində qeyd olunur ki, subsidiyalar konkret məhsula deyil, bütövlükdə kənd təsərrüfatı sektoruna yönəldilir. Bu, ÜTT-yə üzv ölkələr üçün strateji məhsul anlayışını məhv edir, yəni dövlət ixrac olunacaq konkret məhsulların istehsalına maliyyə dəstəyi verə bilmir. ÜTT-nin son danışıqlarında əsas məsələlərdən biri subsidiyaların azaldılması və "aqreqat məhdudiyyətlərin" aradan qaldırılması olub. Hazırda ÜTT-nin Kənd Təsərrüfatı üzrə Sazişinin 1-ci maddəsinə və 3 və 4-cü əlavələrinə düzəlişlər edilməsi üçün danışıqlar aparılır ki, bu da kənd təsərrüfatı ticarətinə daha liberal yanaşma deməkdir.

**Mavi zənbil:** Bu zənbil "Şərtli Kəhrəba zənbil" də adlanır və müəyyən şərtlərlə gələn kənd təsərrüfatı subsidiyaları səbətidir. Bu şərtlər təhrifin azaldılmasını nəzərdə tutur. Əgər dəstək həmçinin fermerlərdən istehsalı məhdudlaşdırmağı tələb edərsə, bu halda bir qayda olaraq Sarı səbətdə olan istənilən dəstək Mavi səbətə daxil edilir. Hazırda mavi səbətə aid olan subsidiyalara xərc limiti tətbiq edilmir.

**Yaşıl zənbil:** Yaşıl Səbətin bir hissəsi kimi uyğun gələn subsidiyalar ticarəti təhrif etməməli və ya minimal təhrif effektlərinə malik olmalıdır. Onlar qiymət artımı hesabına deyil, dövlət tərəfindən maliyyələşdirilməli, qiymət dəstəyi daxil edilməməlidir. Onlar məhsula əsaslanan proqramdan çox, fermerlərə birbaşa maliyyə yardımını cəlb etməli və ətraf mühitin mühafizəsi və regional inkişaf proqramlarını da əhatə etməlidir. Bu subsidiyalar Kənd Təsərrüfatı üzrə Sazişin 2-ci Əlavəsində müəyyən edilmiş xüsusi siyasət meyarlarına cavab verməsi şərti ilə məhdudiyyətsizdir. Məsələn, yaşıl zənbil dəstəyi mövcud istehsal səviyyəsinə və qiymətlərə bağlı olmayan fermerlərə birbaşa maddi dəstəyi, kənd təsərrüfatının yenidənqurulması üçün fermerlərə dəstəyi, o cümlədən ətraf mühit və regional dəstək proqramları çərçivəsində fermerlərə birbaşa ödənişləri əhatə edir.

**İnkişaf Zənbili**: Kənd Təsərrüfatı üzrə Sazişin 6.2-ci maddəsi[4] inkişaf etməkdə olan ölkələrə daxili dəstəyin həyata keçirilməsi üçün əlavə imkanlar yaradır. İnkişaf kateqoriyasına aid oluna bilən dəstək növləri birbaşa və ya dolayı olmasından asılı olmayaraq, kənd təsərrüfatı və kənd yerlərinin inkişafını təşviq etmək üçün yaradılmış və inkişaf etməkdə olan

---

[4] https://www.wto.org/english/docs_e/legal_e/14-ag_01_e.htm#articleVI

ölkələrin inkişaf proqramlarının ayrılmaz hissəsi olan dəstək tədbirləridir. Onlar adətən, inkişaf etməkdə olan üzv ölkələrdə kənd təsərrüfatı üçün mövcud investisiya subsidiyalarını, inkişaf etməkdə olan üzv ölkələrdə aztəminatlı və ya az resurslu istehsalçılar üçün mövcud kənd təsərrüfatı subsidiyalarını və inkişaf etməkdə olan üzv ölkələrdəki istehsalçılara qanunsuz narkotik məhsullar yetişdirilməsindən diversifikasiyanı təşviq etmək üçün daxili dəstəyi əhatə edirlər.[5]

# 3. ÜTT-yə üzvlükdən gözləntilər

ÜTT-yə qəbul hər bir ölkə üçün spesifik xüsusiyyətlərə malik olan prosesdir və üç ildən on beş ilə qədər davam edə bilər. Azərbaycanın ÜTT-yə üzv olması tənzimləmə, əqli mülkiyyət, investisiyalar sahəsində beynəlxalq standartlara cavab verməyən qanunvericiliyin təkmilləşdirilməsi baxımından vacibdir. ÜTT-yə qəbul Azərbaycanın ticarət siyasətinin proqnozlaşdırılmasına, şəffaflığın artırılmasına və beynəlxalq tərəfdaşlarla ticarətin artırılmasına imkan verəcək. İnvestorlar xarici ölkələrə investisiya yatırmaq üçün əsasən daha əlverişli investisiya mühiti və proqnozlaşdırıla bilən investisiya siyasəti olan ölkələri axtarırlar. ÜTT-yə üzvlük ÜTT-nin "şəffaflıq" prinsipi sayəsində investisiyaya müsbət təsir etməklə, xarici investisiyaların cəlb edilməsinə əhəmiyyətli töhfə verir. Eyni zamanda, xarici sahibkarlar ÜTT-nin digər prinsipi olan "milli rejim"in (xarici və yerli sahibkarlar arasında ayrı-seçkiliyin tətbiq olunmaması) tətbiq edildiyi ölkələrə daha çox sərmayə yatırırlar.

Azərbaycan Respublikası Ümumdünya Ticarət Təşkilatına üzv olmaqda məqsədləri aşağıdakılardan ibarətdir[6].

- Dünya iqtisadiyyatı sisteminə inteqrasiya prosesini sürətləndirmək;
- ÜTT-yə üzv olan ölkələrin bir-birinə verdikləri güzəştlərdən faydalanmaq;
- Dünyanın əksər ölkələri ilə ÜTT tərəfindən qəbul edilmiş ümumi qaydalar əsasında ticarət əməliyyatları həyata keçirmək;
- Ölkədə aparılan iqtisadi islahatlara beynəlxalq təşkilatlar, eləcə də inkişaf etmiş ölkələr tərəfindən yardımın artırılmasına nail olmaq;
- ÜTT qaydalarını tətbiq etdikdən sonra daha çox birbaşa xarici sərmayə cəlb etmək;
- ÜTT-nin mübahisələrin həlli mexanizmindən istifadə etmək imkanını əldə etmək.

Azərbaycan hökumətinin hədəfləri isə aşağıdakılardır:

[5] https://www.wto.org/english/tratop_e/agric_e/agboxes_e.htm

[6] https://wto.az/azerbaycan-ve-utt/utt-ye-uzvluk#%C3%9Czv-olmaqda-m%C9%99qs%C9%99d

- İnkişaf etməkdə olan ölkələrə (İEOÖ) müxtəlif xarakterli yardımların (heyvan və bitki sağlamlığı standartları, texniki standartlar, telekommunikasiya və s. üzrə) göstərilməsi;
- Kənd təsərrüfatının subsidiyalaşdırılması üzrə limitin (de minimis) İEOÖ-lər üçün nəzərdə tutulmuş 10% həddində müəyyənləşdirilməsi (İEÖ-lər üçün 5%);
- ÜTT-nin TBT və SPS sazişlərinə müvafiq olaraq texniki qaydalar, standartlar, keyfiyyətin qiymətləndirilməsi prosedurları və sanitar-fitosanitar tədbirlərin hazırlanması və həyata keçirilməsi zamanı İEOÖ-lərin xüsusi ehtiyaclarının nəzərə alınmasının vacibliyinin qəbul edilməsi;
- ÜTT-nin SPS, TBT, TRİPS və digər sazişlərində nəzərdə tutulmuş İEOÖ-lərə texniki yardımın göstərilməsi və s.

Ölkə iqtisadiyyatının aparıcı sahələrindən olan kənd təsərrüfatı sahəsi diqqət mərkəzindədir. Bu səbəbdən danışıqlar zamanı ÜTT-yə qarşı xüsusi tələblər irəli sürülür. Danışıqların sonuncu raundu 27 iyul 2017-ci il tarixdə Cenevrə şəhərində keçirilib. Görüşdə Azərbaycan tərəfi İşçi Qrupunun üzvlərindən aşağıdakı güzəştlərin tətbiq olunmasını tələb edib:

- 10% de minimis (kənd təsərrüfatı sektorunda istehsal edilmiş malların dəyərindən)
- 1 milyard ABŞ dolları həcmində Ümumi Dəstək Göstəricisi imkanı (bütün mənbələrdən olan subsidiyalar üzrə)
- Azərbaycanın işğal altında olan ərazilərin (Dağlıq Qarabağ və ətraf rayonlar) qaytarılmasından sonra kənd təsərrüfatı təyinatlı torpaqlarının bərpası üçün əlavə dəstək
- ÜTT-nin Kənd Təsərrüfatı üzrə Sazişinin 6.2-ci maddəsinə uyğun olaraq subsidiyalarının ayırılması imkanı

# 4. Azərbaycanda kənd təsərrüfatı istehsalının vəziyyəti

Kənd təsərrüfatı Azərbaycanda əsas məşğuliyyətdir və bu sektorda çalışan insanların əksəriyyəti kommersiya məqsədləri üçün deyil, şəxsi ehtiyaclarını ödəmək üçün iqtisadi fəaliyyətlə məşğul olurlar (Qrafik 1). Bu onu deməyə əsas verir ki, bu sektorun yaratdığı təhlükənin əhatə dairəsi geniş və təsirli olacaq. Belə olan halda kənd Azərbaycanın ÜTT-yə qəbulu zamanı ən problemli ərazidir.

Kənd təsərrüfatı Azərbaycan iqtisadiyyatının qeyri-neft sektorunun mühüm hissəsidir. Bu sahə istehlakçı tələbatının əsas hissəsini təşkil edən ərzaq məhsullarını təmin edir. Son bir neçə ildə kənd təsərrüfatı məhsullarında genişlənmə müşahidə olunsa da, istehsalı əhəmiyyətli dərəcədə artırmaq üçün şərait uyğun deyil. Kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də payı, neft sektorunun ümumi iqtisadi artımda təsirinin xüsusilə gücləndiyi 2000-2010-cu illər ərzində 16,1 faizdən 5,5 faizə enib. 2010-2020-ci illər ərzində isə kənd təsərrüfatı məhsulları istehsalının ÜDM-də payı 5,5 faizdən 6,7 faizə yüksəlib.

**Qrafik 1: Kənd təsərrüfatı məhsullarının istehsalının ÜDM-də payı (faizlə)**




2021-ci il ərzində kənd təsərrüfatı sektorunda 9163,4 milyon manat dəyərində məhsul istehsal edilib. Ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarının 4652,4 milyon manatı heyvandarlıq, 4511 milyon manatı isə bitkiçiliyin payına düşüb. Heyvandarlığın bitkiçilik sahəsi ilə müqayisədə yüksək templə artımı, habelə nisbətən aşağı əlavə dəyərin yaradıldığı taxılçılıq sahələrinin ekstensiv metodlarla genişləndirilməsi müqabilində, yüksək əlavə dəyərin yaradıldığı digər məhsulların istehsalında baş verən geriləməyə görə ümumi kənd təsərrüfatı məhsulları istehsalının strukturunda bitkiçilik məhsulları istehsalının payı azalaraq 1995-ci ildəki 57,5 faizdən 2021-ci ildə 49 faizə enib.

**Qrafik 2: Kənd təsərrüfatının ümumi məhsulu, faktiki qiymətlərlə, milyon manat**



2000-ci illərdən bəri əkin sahələrinin ekstensiv inkişafı nəzərə çarpmaqdadır. Bunun əsas səbəbi müstəqillik əldə etdikdən sonra özəl sahibkarların sayının artmasıdır. 1990-cı illə müqayisədə 2021-ci ildə əkin sahələri 12.4 faiz artaraq 1644,5 min hektara çatıb.

**Qrafik 3: Kənd təsərrüfatı bitkilərinin əkin sahələri, bütün təsərrüfat kateqoriyaları üzrə**




Əkin sahələrinin əsas hissəsi- 61 faizi dənli paxlalı bitkilərin əkini üçün istifadə edilir. Əkin sahələrinin 23%-i yemlik bitkilərin, 9%-i kartof, bostan və tərəvəz bitkilərinin, 7%-i isə texniki bitkilərin payına düşür. Kənd təsərrüfatı sektorunu inkişaf etdirmək üçün hökumət 2019-cu ildə (2020-ci il yanvarın 1-dən qüvvəyə minib) böyük həcmdə subsidiya proqramı elan edib. Proqram kənd təsərrüfatı sektorunda fermerlərə və şirkətlərə illik ödəniləcək məbləği nəzərdə tutur. Bitkilərin əkilməsi üçün subsidiya əsas məbləğin məhsul əmsalına vurulması ilə hesablanır. Baza məbləği dövlət tərəfindən əvvəlcədən müəyyən edilib və bu, hazırda 200 AZN təşkil edir. Məhsulun əmsalı da əvvəlcədən müəyyən edilir. Məsələn, 2022-ci il üçün buğdanın əmsalı 1,05-dir, yəni hər akr üçün fermer/şirkət 210 AZN alır. Bəzi məhsulların əkinini stimullaşdırmaq üçün nisbətən yüksək əmsallar tətbiq edilir. Məsələn, soya (1.3), darı (1.05), qarğıdalı (1.05) və çəltik (1,8) bitkilərinin əkini üçün nəzərdə tutulan əmsallar 1,0-dan böyükdür. Fermerlər əkinə başlamazdan əvvəl torpaqlarını qeydiyyata alır və hansı məhsulu becərəcəklərini aidiyyəti qurumlara bildirirlər. Daha sonra ona tam subsidiya məbləği verilir və bu vəsait birbaşa "Fermer kartı" adlanan xüsusi buraxılmış ödəniş kartlarına köçürülür. Fermer tam məbləğin yalnız 25%-ni nağd şəkildə çıxara bilər. Qalan məbləğ toxum, gübrə və digər kənd təsərrüfatı məhsullarının satışı üçün ayrılmış yerlərdə nağdsız xərclənməlidir. Əkin və məhsul yığımı arasındakı müddətdə səlahiyyətli qurumlar hər şeyin (xüsusilə bəyan edilmiş məhsul yetişdirildiyini) qaydasında olub olmadığını yoxlayır. Yeni açılmış 6 meyvə təsərrüfatına birdəfəlik subsidiya verilir. Limon, kinkan bağlarının salınması üçün 11000 manat, naringi və portağal bağlarının salınması üçün 9000 manat, nar bağlarının salınması üçün 5000 manat, zeytun üçün 4900 manat, fındıq təsərrüfatları üçünsə 4400 manat nəzərdə tutulub.

Lakin aqrar sektorun inkişaf etməsi üçün görülən tədbirlər hələ də istənilən nəticəni verməyib. Məsələn, 2021-ci ildə Azərbaycanın ən böyük idxal kateqoriyası bütövlükdə 27% olmaqla ərzaq məhsulları olub. Təkcə buğda idxalı təxminən 331 milyon ABŞ dolları təşkil edir ki, bu da ümumi idxalın 6%-ni təşkil edir.

Təsərrüfat subsidiyalarının əsas problemi bazarlarda sabitliyin pozulmasıdır. Hökumətlərin bu cür süni tədbirləri həddindən artıq məhsul istehsalına, təhrif olunmuş məhsul seçiminə və s. gətirib çıxara bilər. Hökumətlər bəzi məhsullara subsidiyalar ayırdığı halda, digərləri kənarda qalır və ya bəzi qrup məhsullara daha çox vəsait ayrılır. Subsidiyalaşdırılan məhsullar və ya onun məbləği çox dəqiq müəyyən edilmədikcə bəzi məhsulların optimal səviyyədən çox, bəzilərinin isə az istehsal olunması ilə nəticələnə bilər.

Bir çox hallarda subsidyalar kiçik və yoxsul fermerlərdən çox iri kənd təsərrüfatı şirkətlərinə və ya varlı fermerlərə fayda verir. Bunun iki səbəbi var. Azərbaycanın subsidiya proqramında böyük çatışmazlıq ondan ibarətdir ki, hər akr üçün verilən subsidiya məbləği sabitdir. O, hətta buğda əkini xaric ən böyük torpaq sahiblərinə də tam həcmdə verilir. Buğda əkini zamanı 20 hektardan çox torpaq sahəsi olan fermerlər üçün subsidiya məbləği 20% azaldılır. Qeyd etmək lazımdır ki subsidiyaların əsas məqsədi lokal bazarda olan kiçik fermerləri qorumaq və onların böyüməsi üçün şərait yaratmaqdan ibarətdir. Lakin subsidiyalar düzgün şəkildə planlaşdırılmadıqda onlar sadəcə böyük sahibkarların daha rahat varlanmasına gətirib çıxardır. Bundan əlavə, ən böyük torpaq sahibləri miqyas iqtisadiyyatının təsirindən (məsələn, icarəyə götürmək əvəzinə texnikaya sahib olmaq) bəhrələnirlər, buna görə də onların mənfəət marjaları adi fermerlərdən artıqdır və bu, onlara ayrılan subsidiyaların məqsədini təhrif edir.

# 5. Nəticə və tövsiyələr

Azərbaycanda kənd təsərrüfatı sektorunun istənilən qədər inkişaf etməsi ölkənin bu sahədəki potensialının tam gerçəkləşməsinə əngəl olur. Bu baxımdan, ÜTT-yə üzvlük və mövcud standartların beynəlxalq təcrübəyə uyğunlaşdırılması ölkənin kənd təsərrüfatında məhsuldarlığı artıra bilər. Bu isə, öz növbəsində həm idxaldan asılılığın azaldılması, həm də, məşğulluq imkanlarının artırılması baxımından əhəmiyyəti dəyişikliklərə səbəb ola bilər. Eyni zamanda, hökumətin ÜTT-yə üzvlüyün mənfi fəsadları ilə bağlı istifadə etdiyi arqument və narahatlıqlar heç də həlli mümkün olmayan məsələlər deyil. Müvafiq dəyişiklikləri həyata keçirməklə ÜTT-yə üzvlük zamanı mövcud riskləri minimuma endirmək və üzvlüyün üstünlüklərindən faydalanmaq olar. Daha bir məqam odur ki, hökumətin ÜTT-yə üzvlüklə bağlı yanaşmasında siyasi məsələlər iqtisadi amillərlə müqayisədə daha çox ön plana çıxır.

ÜTT-yə üzvlük istiqamətində aşağıdakı addımların atılması tövsiyə edilə bilər:

- Ölkədə biznes mühitinin liberallaşdırılması və rəqabət mühitinin yaxşılaşdırılması;
- Ölkəyə xarici birbaşa investisiyaların cəlb edilməsi məqsədilə təşviq mexanizmlərinin hazırlanması və xarici investisiyaların qorunması ilə bağlı qanunvericilik bazasının təkmilləşdirilməsi;

- İqtisadi qərarların, xüsusilə də, gömrük və vergi siyasəti sahəsindəki qərarların qəbulunda iştirakçılığın artırılması, sahibkarların fəaliyyətinə təsir imkanı olan qərarların qəbulu prosesində onların iştirakçılığının təmin edilməsi;
- İqtisadi fəaliyyətin idarə edilməsi ilə məşğul olan dövlət qurumlarında, eləcə də sahibkarlar arasında ÜTT-yə üzvlük nəticəsində tətbiq ediləcək yeniliklərlə bağlı maarifləndirmə işlərinin aparılması;
- İdxal məhsulları ilə rəqabət imkanlarının məhdud olduğu və zəif inkişaf etmiş kənd təsərrüfatı sahələri ilə bağlı xüsusi siyasət mexanizmlərinin, proqramların hazırlanması

Sənəd Demokratik Təşəbbüslər İnstitutunun (IDI) apardığı araşdırmalar əsasında tərtib olunub. IDI araşdırmanın aparılmasına və sənədin ərsəyə gəlməsinə töhfə verən hər kəsə dərin təşəkkürünü bildirir.

Məlumatlardan istifadə edərkən IDI-yə istinad etmək zəruridir.

Əlaqə məlumatları:

Tel: +99450 435 95 42

Web: www.idi-aze.org

E- poçt: info@idi-aze.org

Facebook: www.facebook.com/DTI.IDI